# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1602 (Cild I); 2024, № 1, maddə 109) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü bənddə "Protez-Ortopedik Bərpa Mərkəzi" sözləri "Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi" sözləri ilə əvəz edilsin.

2. 2.5-ci bəndə "hazırlanması" sözündən sonra ", dəyişdirilməsi" sözü əlavə edilsin.

3. 2.6-cı bəndə "müəyyən olunmuş" sözlərindən sonra "istifadə və" sözləri əlavə olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şəxsə bu Qaydanın əlavəsinin 1.1.5-ci yarımbəndində göstərilən kosmetik yuxarı ətraf protezi verildiyi halda, bu Qaydanın əlavəsinin 1.1.1-ci, 1.1.2-ci və 1.1.3-cü yarımbəndlərində göstərilən əsas yuxarı ətraf protezlərinin istifadə müddəti 1 il artırılır.".

4. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.7. Bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş istifadə müddəti bitdikdən sonra reabilitasiya vasitələri Mərkəz tərəfindən yenisi ilə əvəz edilir.”.

5. Aşağıdakı məzmunda 2.7-1-ci, 2.7-2-ci və 2.11-ci bəndlər əlavə edilsin:

“2.7-1. Reabilitasiya vasitələri bu Qaydanın 3-cü hissəsinin müddəaları nəzərə alınmaqla, müəyyən edilmiş təminat müddətində istehsalat qüsuru aşkarlandığı halda, Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında Mərkəzin vəsaiti hesabına təmir edilir və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmir etmək mümkün olmadıqda yenisi ilə əvəz edilir.

2.7-2. Bu Qaydanın 3-cü hissəsinin müddəaları nəzərə alınmaqla, reabilitasiya vasitələri istifadə müddəti başa çatmazdan əvvəl yararsız vəziyyətə düşdükdə, yaxud Şəxsdə hər hansı bir xəstəlik və ya anatomik-funksional dəyişiklik baş verdikdə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin inkişafı ilə əlaqədar istifadəyə uyğun olmadığı təqdirdə həmin reabilitasiya vasitələri Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında dövlət vəsaiti hesabına təmir edilir və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmir etmək mümkün olmadıqda isə yenisi ilə əvəz edilir.

2.11. Bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, Şəxsə verilmiş reabilitasiya vasitələrinin satılması və ya bağışlanması qadağandır.”.

6. 3.6-cı və 3.7-ci bəndlər ləğv edilsin.

7. 3.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.8. Təkərli oturacaqlar təyin edilərkən, Şəxsin yaşı, çəkisi və boyu nəzərə alınır. Tibbi göstəriş olduğu halda, Şəxs bir ədəd açıq məkanda istifadə üçün mexaniki və ya mühərrikli, bir ədəd qapalı məkanda (otaqda) istifadə üçün, eləcə də bir ədəd sanitar təchizatlı mexaniki təkərli oturacaqla təmin edilir.”.

8. 3.9-cu bəndin birinci cümləsi ləğv edilsin.

9. 3.12-ci bənddə “Agentlik” sözü “Mərkəz” sözü ilə əvəz edilsin.

10. 3.13-cü bənd ləğv edilsin.

11. 3.14-3.16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

“3.14. Minik avtomobili verilmiş Şəxs vəfat etdikdən sonra avtomobil onun ailə üzvündən birinin adına keçirilməklə qeydiyyatdan çıxarılır və vəfat etmiş Şəxsin ailəsinin mülkiyyətinə verilir.

3.15. Minik avtomobili almış ailəsi (ər-arvad, valideynlər və uşaqlar) olmayan Şəxs vəfat etdikdə, minik avtomobili Sosial Xidmətlər Agentliyi tərəfindən götürülür və növbəlilik siyahısındakı ardıcıllığa uyğun olaraq digər Şəxsə verilir.

3.16. Şəxsə verilmiş təkərli oturacaqlar istifadə müddəti başa çatmamışdan əvvəl yararsız vəziyyətə düşdükdə, Şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti əsasında Mərkəzin tibbi-texniki komissiyası tərəfindən həmin reabilitasiya vasitələrinə 3 (üç) iş günü müddətində texniki baxış keçirilir, təmiri mümkün olduqda Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında təmir olunur və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmiri mümkün olmadıqda Mərkəzin tibbi-texniki komissiyasının aktı və Agentliyin qərarı əsasında Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.".

12. Aşağıdakı məzmunda 3.16-1-ci bənd əlavə edilsin:

"3.16-1. 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə verilmiş təkərli oturacaqlar, istifadə müddəti başa çatmamışdan əvvəl şəxsin inkişafı ilə əlaqədar istifadəyə uyğun olmadığı təqdirdə, onun qanuni nümayəndəsinin müraciəti əsasında həmin reabilitasiya vasitəsi Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.".

13. "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na əlavə - "Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks-göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri" yeni redaksiyada verilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 20 iyun 2024-cü il

№ 307

## Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks-göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri

| Sıra №-si | Reabilitasiya vasitəsinin adı və növü | Reabilitasiya vasitəsinin verilməsinə dair tibbi göstərişlər | Əks-göstərişlər | Sayı və ölçü vahidi | İstifadə müddəti | Təminat müddəti | Hazırlanma müddəti | Təmir və ya dəyişdirilmə müddəti |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| **1. HƏRƏKƏTLİLİK ÜÇÜN REABİLİTASİYA VASİTƏLƏRİ** | | | | | | | | |
| **1.1. Yuxarı ətraf protezləri** | | | | | | | | |
| 1.1.1. | Şin-dəri və ya modul tipli yuxarı ətraf protezi | Yuxarı ətrafın müxtəlif səviyyədə itirilməsi və inkişaf çatışmazlığının funksional bərpası məqsədilə təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.1.2. | Yüksək texnologiyalı yuxarı ətraf protezi (elektron komplektləşdiricilərdən istifadə olunmaqla) | İki və daha çox ətrafını müxtəlif səviyyədə itirmiş və ya inkişaf çatışmazlığı olan əlilliyi olan şəxslərə; ətrafını müxtəlif səviyyədə itirmiş və xüsusi səbəbdən, habelə | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 3 ildən az olmayaraq, 18 yaşadək şəxslərin | 6 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | terror hadisəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təyin edilir | məhdudlaşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | | inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | | | |
| 1.1.3. | Yüksək texnologiyalı yuxarı ətraf protezi (elektron komplektləşdiricilərdən istifadə olunmamaqla) | İki və daha çox ətrafını müxtəlif səviyyədə itirmiş və ya inkişaf çatışmazlığı olan əlilliyi olan şəxslərə; ətrafını müxtəlif səviyyədə itirmiş və xüsusi səbəbdən, habelə terror hadisəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 3 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 6 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.1.4. | Yuxarı ətraf işçi protezi | Yuxarı ətrafın müxtəlif səviyyədə itirilməsi halında hər hansı bir məişət fəaliyyətini yerinə yetirməyə kömək göstərilməsi üçün təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 3 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.1.5. | Kosmetik yuxarı ətraf protezi | Yuxarı ətrafın müxtəlif səviyyədə itirilməsi və inkişaf çatışmazlığının kosmetik bərpası məqsədilə təyin edilir və eyni qaydada 1.1.1-ci, 1.1.2-ci və 1.1.3-cü yarımbəndlərdə göstərilən | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 6 aydan az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | reabilitasiya vasitələri ilə yanaşı verilir | pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik yaralar; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | | əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | | | |
| 1.1.6. | Yuxarı ətraf üçün ehtiyat protezləri | Yuxarı ətraf protezləri olan əlilliyi olan şəxslərə əsas protezlərlə yanaşı ehtiyat protezlər də təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünə-qulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaş-dıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | diaqnozdan asılı olaraq yerinə və növünə görə dəyişir | 18 yaşdan yuxarı şəxslər üçün 3 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| | | | **1.2. Yuxarı ətraf protezləri üçün əlavələr** | | | | | |
| 1.2.1. | Yuxarı ətraf protezləri üçün kosmetik üzlüklər | Əlilliyi olan şəxslərin dərisinin rənginə və zövqünə uyğun yuxarı ətraf protezlərinin kosmetik üzlükləri təyin edilir | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 3 aydan az olmayaraq | 1 ay | | təmir müddəti 3 iş günü |
| 1.2.2. | Yuxarı ətraf protezləri üçün silikon içlik | Yuxarı ətraf protezlərindən istifadə üçün təyin edilir | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.3. | Yuxarı ətraf pro-tezlərini geyinmək üçün köməkçi vasitə | Yuxarı ətraf protezlərini geyinmək üçün təyin edilir | | 1 ədəd | 6 aydan az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.4. | Rezin yanlıqlı ayaqqabı | Hər iki yuxarı ətrafı amputasiya olunmuş əlilliyi olan şəxslər üçün təyin edilir | | 1 cüt | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Mərkəzin həkiminin təyinatı əsasında | | | |
| 1.2.5. | Taxma ucluq-maqqaş | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.6. | Taxma ucluq-mişar dəstəyi | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.7. | Taxma ucluq-ikiqat halqa | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.8. | Taxma ucluq-çəkic | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.9. | Taxma ucluq-iskənə | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.10. | Taxma ucluq-qələm | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| 1.2.11. | Taxma ucluq-qarmaq | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.12. | Taxma ucluq-kerner | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.13. | Taxma ucluq-mişar üçün | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.14. | Taxma ucluq-qayçı | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.15. | Taxma ucluq-məngənə | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.16. | Taxma ucluq-universal sıxac | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| 1.2.17. | Taxma ucluq-açar dəsti üçün | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.18. | Taxma ucluq-ütü üçün | Yuxarı ətraf işçi protezi istifadəçisinə məişət və əmək fəaliyyəti üçün tələb olunan taxma ucluq əlilliyi olan şəxsin müraciətinə uyğun olaraq təyin edilir | | 1 ədəd | 2 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.2.19. | Elastik bint | Protezləşmədən əvvəl amputasiya olunmuş yuxarı ətraf güdülünü ödemdən və şişkinlikdən qorumaq və güdülün ölçüsünü sabitləşdirmək üçün təyin edilir | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| | | | **1.3. Aşağı ətraf protezləri** | | | | | |
| 1.3.1. | Şin-dəri və ya modul tipli aşağı ətraf protezi | Aşağı ətrafın müxtəlif səviyyədə itirilməsi və inkişaf çatışmazlığının funksional bərpası məqsədilə təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.3.2. | Yüksək texnologiyalı aşağı ətraf protezi (elektron komplektləşdiricilərdən istifadə olunmaqla) | İki və daha çox ətrafını müxtəlif səviyyədə itirmiş və ya inkişaf çatışmazlığı olan əlilliyi olan şəxslərə; ətrafını müxtəlif səviyyədə itirmiş və xüsusi səbəbdən, habelə terror hadisəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular; fəal fazada | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 3 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar | 6 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | | bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | | Mərkəzin həkiminin təyinatı əsasında | | | |
| 1.3.3. | Yüksək texnolo-giyalı aşağı ətraf protezi (elektron komplektləşdirici-lərdən istifadə olunmamaqla) | İki və daha çox ətrafını müxtəlif səviyyədə itirmiş və ya inkişaf çatışmazlığı olan əlilliyi olan şəxslərə; ətrafını müxtəlif səviyyədə itirmiş və xüsusi səbəbdən, habelə terror hadisəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünə-qulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdud-laşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 3 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 6 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.3.4. | Pəncə protezi | Pəncənin ön və orta hissəsinin müxtəlif səviyyədə amputasiyası, habelə inkişaf çatışmazlığı halında təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünə-qulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdud-laşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif mənşəli kaxeksiyalar; geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 6 aydan az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.3.5. | Aşağı ətraf üçün ehtiyat protezləri | Aşağı ətraf protezləri olan əlilliyi olan şəxslərə əsas protezlərlə yanaşı ehtiyat protezlər də təyin edilir | stasionar şəraitdə müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər; özünə-qulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdud-laşdıran psixi pozuntular; fəal fazada bədxassəli şişlər; müxtəlif kaxeksiyalar; | diaqnozdan asılı olaraq yerinə və növünə görə dəyişir | 18 yaşdan yuxarı şəxslər üçün 3 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | | geniş trofik və yataq yaraları; irinli-nekrotik xəstəliklər; yoluxucu və zöhrəvi xəstəliklər | | həkiminin təyinatı əsasında | | | |
| | | | **1.4. Aşağı ətraf protezləri üçün əlavələr** | | | | | |
| 1.4.1. | Bud üçün corab (xovlu, yun, pambıq, neylon və s.) | Aşağı ətraf (bud) protezlərindən istifadə olunduqda güdülə geyindirmək üçün təyin edilir | | 10 ədəd | 1 ildən az olmayaraq | 10 gün | | |
| 1.4.2. | Baldır üçün corab (xovlu, yun, pambıq, neylon və s.) | Aşağı ətraf (baldır) protezlərindən istifadə olunduqda güdülə geyindirmək üçün təyin edilir | | 15 ədəd | 1 ildən az olmayaraq | 10 gün | | |
| 1.4.3. | Aşağı ətraf protezləri üçün silikon içlik | Aşağı ətraf protezlərindən istifadə üçün təyin edilir | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.4.4. | Dermo corab | Aşağı ətraf protezlərindən istifadə olunduqda güdülə geyindirmək üçün təyin edilir | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.4.5. | Aşağı ətraf protezləri üçün kosmetik üzlüklər | Əlilliyi olan şəxslərin dərisinin rənginə və zövqünə uyğun aşağı ətraf protezlərinin kosmetik üzlükləri təyin edilir | | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 3 aydan az olmayaraq | 1 ay | | təmir müddəti 3 iş günü |
| 1.4.6. | Elastik bint | Protezləşmədən əvvəl amputasiya olunmuş aşağı ətraf güdülünü ödemdən və şişkinlikdən qorumaq və güdülün ölçüsünü sabitləşdirmək üçün təyin edilir | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.4.7. | Bud protezi üçün bandaj | Əlilliyi olan şəxsin rahatlığı və təhlükəsizliyi üçün bud bandajı təyin edilir | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.4.8. | Baldır protezi üçün bandaj | Əlilliyi olan şəxsin rahatlığı və təhlükəsizliyi üçün baldır bandajı təyin edilir | məhsulun hazırlandığı materiallara qarşı allergik reaksiya | 2 ədəd | 1 ildən az olmayaraq | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| 1.4.9. | Aşağı ətraf protezlərini geyinmək üçün köməkçi vasitə | Aşağı ətraf protezlərini geyinmək üçün təyin edilir | | 1 ədəd | 6 aydan az olmayaraq | 2 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.4.10. | Protez üçün ayaqqabı | Aşağı ətraf protezləri üçün təyin edilir | | 2 cüt | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| **1.5. Ortopedik ayaqqabılar** | | | | | | | | |
| 1.5.1. | Sadə və ya mürəkkəb ortopedik ayaqqabı | Ayağın deformasiyası, itirilmiş funksiyasının bərpası və hərəkətinin asanlaşdırılması üçün təyin edilir. Hər bir əlilliyi olan şəxs üçün xüsusi hazırlanır | pəncənin ağır dərəcə trofiki pozuntuları; dərinin irinli-iltihablı xəstəlikləri; dəri tamlığının pozulmasının digər halları | 2 cüt | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.5.2. | Ortopedik başmaq | Pəncənin ön və orta hissəsinin müxtəlif səviyyədə amputasiyası, habelə inkişaf çatışmazlığı halında təyin edilir | pəncənin ağır dərəcə trofiki pozuntuları; dərinin irinli-iltihablı xəstəlikləri; dəri tamlığının pozulmasının digər halları | diaqnozdan asılı olaraq 1 və ya 2 yarım cüt | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| **1.6. Ortopedik ayaqqabılar üçün əlavələr** | | | | | | | | |
| 1.6.1. | Ortopedik ayaqqabılar üçün korreksiyaedici içlik-supinator | Ayağın patologiyalarında və gəzinti zamanı ayağın hissələrinə yükün düzgün paylanması üçün təyin edilir | trofiki pozuntular | 2 cüt | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 10 iş günü | |
| 1.6.2. | Ortopedik ayaqqabılar üçün korreksiyaedici içlik-pronator | Ayağın patologiyalarında və gəzinti zamanı ayağın hissələrinə yükün düzgün paylanması üçün təyin edilir | trofiki pozuntular | 2 cüt | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 10 iş günü | |
| 1.6.3. | Tvister | Yeriş və ya duruş zamanı ayağın içəri və ya yanlara fırlanması (rotasiyası) müşahidə olunduğu hallarda əks tərəfə fırlanmasını (rotasiyanı) təmin etmək üçün təyin edilir | | 1 və ya 2 ədəd | 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 20 iş günü | |
| **1.7. Baş ortezləri** | | | | | | | | |
| 1.7.1. | Baş ortezi (obturator) | Kəllə-beyin, üz və qulağın travmaları, xəstəlikləri, inkişaf anomaliyaları, əməliyyat zamanı və sonrakı müalicə müddətində | kəllədaxili hipertenziya sindromu; əməliyyat olunmamış kraniosinostoz; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək | 1 ay | 15 iş günü | təmir müddəti 5 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | asimmetriya və deformasiyalar zamanı təyin edilir | psixi pozuntular | | şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | | | |
| **1.8. Onurğa üçün ortezlər (korsetlər)** | | | | | | | | |
| 1.8.1. | Sərt korset (bədən, boyun üçün) | Gövdənin zədələnməsi və deformasiyası zamanı, qarın boşluğu və qarın divarı xəstəliklərində, onurğanın normal funksional vəziyyətdə fiksasiyası, onun yükünün azaldılması və deformasiyaların korreksiyası, itirilmiş funksiyaların bərpası və yaxud ağırlaşmaların qarşısının alınması üçün, xəstəliklər, travma, inkişaf anomaliyaları səbəbindən onurğa sütununun statodinamik funksiyasının pozulması hallarında təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 15 iş günü | təmir müddəti 5 iş günü |
| 1.8.2. | Korreksiyaedici bandaj, yumşaq korset | Onurğa sütununun deformasiyası, ürək qüsurları, qarının ön divarının yırtıqlarında qarın boşluğu orqanlarının qorunması və qarın divarının möhkəmləndirilməsi, statodinamik funksiyanın pozulmasında baş verə biləcək ağırlaşmaların qarşısının alınması üçün, xəstəliklər, travma, inkişaf anomaliyaları səbəbindən onurğa sütununun statodinamik funksiyasının pozulması hallarında təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq yerinə və növünə görə dəyişir | 18 yaşdan yuxarı şəxslər üçün 6 aydan az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 15 iş günü | dəyişdirilmə müddəti 7 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| 1.8.3. | Reklinator | Onurğa sütununun yuxarı döş hissəsində statodinamik funksiyanın pozulmasında baş verə biləcək ağırlaşmaların qarşısının alınması və qamətin korreksiyası üçün təyin edilir | özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | 1 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 6 aydan az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 15 iş günü | təmir müddəti 5 iş günü |
| | | | **1.9. Yuxarı ətraf ortezləri** | | | | | |
| 1.9.1. | Şin-dəri, polimer və ya sintetik qatran tərkibli yuxarı ətraf üçün ortopedik aparat | Yuxarı ətrafda, həmçinin onurğa sütununda hərəkətin çətinləşməsi ilə əlaqədar patologiyalar olduqda, həmin çatışmazlıqların aradan qaldırılması, deformasiyanın qarşısının alınması, dayaq-hərəkət aparatının funksiyalarının yerinə yetirilməsi, xəstəliklər, travmalar, inkişaf anomaliyaları nəticəsində kəskin və əhəmiyyətli statodinamik funksiya pozulmaları zamanı yuxarı ətrafın fiksasiyası üçün təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.9.2. | Karbonla hazırlanan yuxarı ətraflar üçün ortopedik aparat | Yuxarı ətrafda, həmçinin onurğa sütununda hərəkətin çətinləşməsi ilə əlaqədar patologiyalar olduqda, həmin çatışmazlıqların aradan qaldırılması, deformasiyanın qarşısının alınması, dayaq-hərəkət | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | aparatının funksiyalarının yerinə yetirilməsi, xəstəliklər, travmalar, inkişaf anomaliyaları nəticəsində kəskin və əhəmiyyətli statodinamik funksiya pozulmaları zamanı yuxarı ətrafın fiksasiyası üçün təyin edilir | | | həkiminin təyinatı əsasında | | | |
| 1.9.3. | Yuxarı ətraf üçün bandaj | Yuxarı ətrafın əzələ və bağ aparatının zədələnməsi zamanı immobilizasiya üçün təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq yerinə və növünə görə dəyişir | 18 yaşdan yuxarı şəxslər üçün 6 aydan az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.9.4. | Yuxarı ətraf tutoru | Yuxarı ətrafların hissələrinin deformasiyasının korrek-siyası, xəstəliklər, travmalar, inkişaf anomaliyaları nəticəsində kəskin və əhəmiyyətli statodinamik funksiya pozulmaları zamanı yuxarı ətrafın fiksasiyası üçün təyin edilir | oynaqların kontrakturası; əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 15 iş günü | təmir müddəti 5 iş günü |
| | | | | **1.10. Aşağı ətraf ortezləri** | | | | |
| 1.10.1. | Şin-dəri, polimer və ya sintetik qatran tərkibli aşağı ətraf üçün ortopedik aparat | Aşağı ətrafda, həmçinin onurğa sütununda hərəkətin çətinləşməsi ilə əlaqədar patologiyalar olduqda, həmin çatışmazlıqların aradan | aşağı ətrafa boylama oxu istiqamətində yüklənmə mümkün olmadığı halda, əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin | 1 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | qaldırılması, deformasiyanın qarşısının alınması, dayaq-hərəkət aparatının funksiyalarının yerinə yetirilməsi, xəstəliklər, travmalar, inkişaf anomaliyaları nəticəsində kəskin və əhəmiyyətli statodinamik funksiya pozulmaları zamanı aşağı ətrafın fiksasiyası üçün təyin edilir | psixi pozuntular | | inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | | | |
| 1.10.2. | Karbonla hazırlanan aşağı ətraflar üçün ortopedik aparat | Aşağı ətrafda, həmçinin onurğa sütununda hərəkətin çətinləşməsi ilə əlaqədar patologiyalar olduqda, həmin çatışmazlıqların aradan qaldırılması, deformasiyanın qarşısının alınması, dayaq-hərəkət aparatının funksiyalarının yerinə yetirilməsi, xəstəliklər, travmalar, inkişaf anomaliyaları nəticəsində kəskin və əhəmiyyətli statodinamik funksiya pozulmaları zamanı aşağı ətrafın fiksasiyası üçün təyin edilir | aşağı ətrafa boylama oxu istiqamətində yüklənmə mümkün olmadığı halda, əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 2 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 2 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |
| 1.10.3. | Yüksək texnologiyalı aşağı ətraf üçün ortopedik aparat (elektron komplektləşdirici-lərdən istifadə olunmaqla) | Aşağı ətrafda, həmçinin onurğa sütununda hərəkətin çətinləşməsi ilə əlaqədar patologiyalar olduqda, həmin çatışmazlıqların aradan qaldırılması, deformasiyanın qarşısının alınması, dayaq-hərəkət aparatının funksiyalarının | aşağı ətrafa boylama oxu istiqamətində yüklənmə mümkün olmadığı halda, əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 3 ildən az olmayaraq | 6 ay | 20 iş günü | təmir müddəti 10 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | yerinə yetirilməsi, xəstəliklər, travmalar, inkişaf anomaliyaları nəticəsində kəskin və əhəmiyyətli statodinamik funksiya pozulmaları zamanı xüsusi səbəbdən, habelə terror hadisəsi ilə əlaqədar əlilliyi olan şəxslərə aşağı ətrafın fiksasiyası üçün təyin edilir | | | | | | |
| 1.10.4. | Aşağı ətraf üçün bandaj | Aşağı ətrafın əzələ və bağ aparatının zədələnməsi zamanı immobilizasiya üçün təyin edilir | əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq yerinə və növünə görə dəyişir | 18 yaşdan yuxarı şəxslər üçün 6 aydan az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | | dəyişdirilmə müddəti 7 iş günü |
| 1.10.5. | Aşağı ətraf tutoru | Aşağı ətrafların hissələrinin və deformasiyasının korreksiyası, xəstəliklər, travmalar, inkişaf anomaliyaları nəticəsində kəskin və əhəmiyyətli statodinamik funksiya pozulmaları zamanı aşağı ətrafın fiksasiyası üçün təyin edilir | aşağı ətrafa boylama oxu istiqamətində yüklənmə mümkün olmadığı halda, oynaqların kontrakturası; əzələ distrofiyaları; özünəqulluq və davranışa nəzarət etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntular | diaqnozdan asılı olaraq 1 və ya 2 ədəd | 18 yaşdan yuxarı şəxslər üçün 1 ildən az olmayaraq, 18 yaşadək şəxslərin inkişafı ilə əlaqədar Mərkəzin həkiminin təyinatı əsasında | 1 ay | 15 iş günü | təmir müddəti 5 iş günü |
| **1.11. Təkərli oturacaqlar** | | | | | | | | |
| 1.11.1. | Universal mühərrikli təkərli oturacaq | Yuxarı və aşağı ətrafda hərəkətin kəskin məhdudlaşması ilə əlaqədar | 1) ağır və dərin əqli çatışmazlıq, demensiyalı ruhi pozuntular; | 1 ədəd | 5 ildən az olmayaraq | 6 ay | | dəyişdirilmə müddəti 10 iş günü; |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | aşağıdakı tibbi göstərişlər olduqda 14 yaşdan yuxarı şəxslərə təyin edilir:<br>1) nəzərəçarpan dərin hemiparez və triparez, hemiplegiya, tetraparez (aşağı ətrafların nəzərə çarpan dərin paraparezi, paraplegiyası, yuxarı ətraflarda əzələ gücü 2-3 bal olmaq şərtilə), ətraflarda əzələ tonusunun ifadəli nəzərəçarpan yüksəlməsi (rigidlik) zamanı;<br>2) bir aşağı ətrafın güdülü və digər aşağı ətrafın funksional yararsız vəziyyətdə olması;<br>3) hər iki aşağı ətrafın müxtəlif səviyyədə güdülü, protezləşməyə yararlı olmasından asılı olmayaraq;<br>4) hər iki ayaq pəncəsinin Şopar oynağı səviyyəsində amputasion güdülü;<br>5) aşağı ətraf oynaqlarının endoprotezləşməsindən sonrakı ağırlaşmalar olduğu halda;<br>6) xroniki arterial çatışmazlığı, III mərhələ;<br>7) xroniki venoz çatışmazlığı, III dərəcə.<br><br>Əlilliyi olan şəxslərdə yuxarıda qeyd edilən tibbi göstərişlər aşağıda qeyd olunmuş yuxarı ətrafın patologiyaları ilə birlikdə olduğu hallarda təyin edilir: | 2) epileptik sindrom;<br>3) əhəmiyyətli görmə məhdudiyyəti (əlilliyi olan şəxsin hər iki gözünün görmə itiliyi 0,04-dən aşağı və ya görmə sahəsi 5 (beş) dərəcədən aşağı olduqda);<br>4) stenokardiya, IV funksional sinif;<br>5) statika və hərəkət koordinasiyalarının əhəmiyyətli ciddi pozuntuları;<br>6) yuxarı ətrafda və gövdənin yuxarı hissəsində tam hərəkətsizlik;<br>7) xroniki ürək çatışmazlığı, III dərəcəli;<br>8) tənəffüs çatışmazlığı, III dərəcəli;<br>9) həzm orqanı xəstəlikləri (III dərəcəli bədən kütləsi defisiti, qaraciyər sirrozu assitlə, mütəmadi qanaxmalarla ağırlaşan qida borusunun və mədənin III dərəcəli damar genişlənməsi);<br>10) genital-urinar sistemi xəstəlikləri, III dərəcəli xroniki böyrək çatışmazlığı və sistemli hemodializə əks göstəriş olduqda;<br>11) bədxassəli törəmələr IV kliniki qrup;<br>12) narkomaniya, II-III dərəcəli xroniki alkoqolizm;<br>13) ikitərəfli protezləşməsi mümkün olmayan IV dərəcəli karlıq;<br>14) yuxarı və aşağı ətraflarda qeyri-iradi hərəkətlər | | | | | təmir müddəti 30 iş günü |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | 1) hər iki yuxarı ətrafın hərəkətsizliyi;<br>2) hər iki yuxarı ətrafda hərəkətin kəskin məhdudlaşması, çiyin və dirsək oynaqlarında aktiv hərəkətin amplitudası, 13-20 dərəcə, biləkdə 9-14 dərəcədən aşağı olduqda, kontraktura nəticəsində barmaqlar ovucdan 3-4 sm aralı qalarsa, xırda əşyaları tutmağın və iri əşyaları uzun müddət ərzində saxlamağın imkansızlığı, yuxarı ətrafın əzələ gücünün 2 (iki) bala qədər enməsi və hər iki yuxarı ətrafda çiyin əzələlərinin 6,0-6,5 sm-ə qədər, bazunun ön əzələlərinin isə 3,5-4,0 sm atrofiyası nəticəsində yaranan əhəmiyyətli funksiya pozuntusu | (hiperkinezlər), ciddi koordinasiya pozuntuları | | | | | |
